## “İRSİMİZİ TANIYAQ, TANIDAQ” MÜSABİQƏSİNİN REQLAMENTİ

“İrsimizi tanıyaq, tanıdaq” müsabiqəsi (bundan sonra – müsabiqə) Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin (bundan sonra – Nazirlik) təşkilatçılığı ilə keçirilir.

Müsabiqənin keçirilməsində əsas məqsəd Ümummilli lider Heydər Əliyevin mədəniyyətə və mədəni irsə qayğısını rəhbər tutaraq, Azərbaycanın mədəni irs nümunələrinin qorunması, təbliği, vətənpərvərlik hissinin aşılanması, mədəniyyətə, milli mənəvi dəyərlərə və adət-ənənələrimizə hörmətin qorunub saxlanılması, inkişaf etdirilməsidir.

### MÜSABİQƏYƏ TƏQDİM OLUNAN VİDEOÇARX ÜÇÜN MÖVZULAR

- Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz;
- tarix və mədəniyyət abidələrinin qorunmasının təbliği, o cümlədən:
    - milli kimliyimizin və tariximizin ayrılmaz hissəsi kimi tarixi abidələrimizin qorunmasında hər bir vətəndaşın öz məsuliyyətini dərk etməsi;
    - tarixi abidələrimizin qorunması və mühafizəsi işində vətəndaş mövqeyinin, ictimai məsuliyyətin və bu işdə bilavasitə iştirakçılığın əhəmiyyəti;
    - tarix və mədəniyyət abidələrindən istifadə zamanı onların mühafizəsi, qeyri-qanuni istismarın yolverilməzliyi və tarixi irsimizə ictimai həssaslığın önəmi;
    - Tarix və mədəniyyət abidələrini qorumağın hər bir şəxsin konstitusion borcu – hər bir sahibkar və təşkilatın vəzifəsi olması.
- qeyri-maddi mədəni irsin (folklor, sənətkarlıq və s.) qorunması və təbliği;
- tariximiz muzeylərimizin timsalında;
- milli mənəvi dəyərlərə və adət-ənənələrimizə hörmətin təbliği və davranış mədəniyyəti;
- cəmiyyətdə yüksək bədii-estetik zövqün formalaşmasının təbliği və s.

### MÜSABİQƏNİN MƏRHƏLƏLƏRİ

Müsabiqə aşağıdakı iki mərhələdən ibarətdir:

- Müsabiqənin I mərhələsi 20 iyul – 10 oktyabr 2023-cü il tarixlərini əhatə edir və bu mərhələdə Nazirlik tərəfindən videoçarxların və sənədlərin qəbulu həyata keçirilir.
- Müsabiqənin II mərhələsi 11-25 oktyabr 2023-cü il tarixlərini əhatə edir və Nazirlik tərəfindən yaradılmış Ekspert Şurası tərəfindən videoçarxların qiymətləndirməsi həyata keçirilir.

- Müsabiqəyə qoşulmaq istəyən şəxslər 20 iyul – 10 oktyabr 2023-cü il tarixlərində Nazirliyin “culture.gov.az” rəsmi internet saytında yerləşdirilən elektron müraciət forması vasitəsilə qeydiyyatdan keçə bilərlər.

**MÜSABİQƏYƏ TƏQDİM EDİLİR:**

- müəlliflərin şəxsiyyət vəsiqələrinin (daimi yaşayış icazələrinin) surəti;
- iştirakçıların tərcümeyi-halları;
- Videoçarx.

**QİYMƏTLƏNDİRMƏ VƏ MÜKAFAT:**

- Ekspert Şurasının qiymətləndirilməsi nəticəsində qalib iştirakçı müəyyən ediləcək və ən çox bal toplamış ilk üç namizəd Nazirlik tərəfindən mükafatlandırılacaq. Müsabiqənin ümumi fondu 10 000 AZN təşkil edir və aşağıdakı qaydada mükafatlandırma nəzərdə tutulmuşdur:
  I yer – 6 000 AZN
  II yer – 3 000 AZN
  III yer – 1 000 AZN

- Qiymətləndirmə bu Reqlamentdə göstərilmiş meyarlar nəzərə alınmaqla aparılır, hər bir meyar üzrə ayrılıqda qiymətləndirmə 1-10 bal aralığında müəyyən edilir. Ekspert Şurasının üzvləri tərəfindən verilmiş qiymətlər toplanaraq, namizəd barədə ümumi bal müəyyən edilir və yekun nəticə rəsmiləşdirilir. Ekspert Şurasının hər bir üzvü tərəfindən verilmiş bal 5 meyar üzrə verilmiş qiymətin cəmindən ibarətdir.
- Yekun nəticə aşağıdakı düstur əsasında hesablanılır:

$$\frac{\text{Ümumi balların cəmi}}{\text{Ekspert Şurasının üzvlərinin sayı}} = \text{Nəticə}$$

- Müsabiqəyə iştirakçılar tərəfindən təqdim edilmiş videoçarxlar qiymətləndirilərkən aşağıdakı meyarlar nəzərə alınır:

- istiqamətləndirici mövzuları dolğun əhatə etmə səviyyəsi;
- analitik keyfiyyətlər, faktlar və məsələlərin düzgün təqdimatı;
- ifadə vasitələrinin zənginliyi;
- izləyici üçün məlumatlılıq dərəcəsi, ictimai və ideoloji təsir imkanları;
- videoçarxların təsirliliyi və emosional məzmunu.

- Müsabiqənin qaliblərinin adları 31 oktyabr 2023-cü il tarixində Nazirliyin rəsmi saytında (culture.gov.az) elan olunacaq.

**MÜSABİQƏNİN QƏBUL ŞƏRTLƏRİ**

- Müsabiqədə Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayış icazəsi olan şəxslər iştirak edə bilər.
- Hər iştirakçı yalnız bir videoçarx ilə müsabiqəyə qoşula bilər.
- Müsabiqədə iştirak üçün göndərilən videoçarxlar müsabiqənin mövzusuna uyğun olmalıdır.
- Videoçarxların müddəti maksimum 3 dəqiqə olmalıdır.
- Videoçarxlar Azərbaycan dilində və ya Azərbaycan dilinə tərcümə olunaraq altyazı ilə təqdim edilməlidir.
- Videoçarxlar MP4 və ya MOV formatında hazırlanmalıdır (1920x1080 ölçüdə).
- Müsabiqəyə iştirakçı tərəfindən çəkilən və ya animasiya formatında hazırlanan videoçarxlar təqdim edilə bilər.

Obyektivliyi təmin etmək üçün sosial çarxlar kodlaşdırılmış adlarla Ekspert Şurasına təqdim olunur.

Nazirlik müsabiqənin daha geniş tamaşaçı kütləsinə çatdırılması məqsədilə videoçarx nümunələrini Nazirliyin rəsmi sosial media hesablarında və mediada yayımlaya bilər. Bu halda iştirakçıların müəlliflik hüququ təmin olunur.

Videoçarxlarda istifadə edilən materialların müəllif hüquqları məsələləri ilə bağlı yarana biləcək hər hansı mübahisəli məsələyə görə məsuliyyəti müsabiqə iştirakçısı daşıyır.

Əlavə məlumat üçün:

*Telefon: +994 12 498 20 62*

*E-poçt: media@culture.gov.az*

***Qeyd**:* Həftənin iş günləri saat 09:00-18:00-dək sənədlərin və videoçarxların qəbulu həyata keçirilir.